**Orucoğlu Z.** Şücaət və igidlik unudulmur // Respublika. - 2024. - 19 iyul. - **№ 150**. - S. 10.

**44 günlük haqq savaşımızda Vətən torpaqlarının azadlığı uğrunda tarix yazıb şəhidlik zirvəsinə ucalan qeyrətli Azərbaycan oğullardan biri də Mirxəyal Kərimzadədir. Lənkəran camaatı uşaqdan-böyüyə öz qəhrəman oğlunu yad etməyi, xatirəsini əziz tutmağı özünə mənəvi borc bilir.**

Bu günlər isə Lənkəran Mərkəzi Kitabxanasının kollektivi şəhid Mirxəyal Kərimzadənin ailəsini ziyarət edib. Əvvəlcə şəhidin məzarı ziyarət olunub, ehtiram əlaməti olaraq önünə təzə gül dəstələri qoyulub. Şəhidin boya-başa çatdığı ailə ocağında onun keçdiyi döyüş yolundan, ağır müharibə meydanında göstərdiyi şücaət və qəhrəmanlığı haqqında danışılıb.

10 yanvar 1999-cu ildə Lənkəranda dünyaya göz açan şəhid Mirxəyal Valeh oğlu Kərimzadə yağıdan qisas almaq üçün orduya yollanıb, 2017-2018-ci ildə Naxçıvanda ağır artilleriya bölümündə atıcı kimi canından artıq sevdiyi Azərbaycanın keşiyində durub. Vətən müharibəsi başlananda könüllü döyüşə yollanıb, və düşmənlə sona qədər vuruşub qisas alacağına and içib.

İgid əsgər Füzuli əməliyyatında, Yuxarı Veysəlli kəndinin azadlığı uğrunda özünəməxsus şücaət göstərib. Yağının kabusuna çevrilən, neçə-neçə ağır sınaqlardan üzüağ çıxan Mirxəyal noyabrın 3-ü səhər saatlarında Xocavənddə gedən gərgin döyüşlərdə erməni dığalarına qan uddurub. Yaralanmış komandirini, döyüş yoldaşlarını müharibə meydanından çıxararaq onlara ilkin tibbi yardım edib. Zirehli üst geyimini soyunub yaralı komandirinin üstünə atmış və onu xilas edə bilmişdir. Özü isə yenidən döyüşə qayıtmış, az sonra qarın boşluğuna dəyən güllə nəticəsində şəhid olub, 9 noyabrda Lənkəran şəhərinin kiçik bazar qəbiristanlığında torpağa tapşırılıb.

Vətənin yaşaması naminə canını fəda edib ölümsüzlüyə qovuşan Lənkəran elinin qəhrəman oğlu Mirxəyal Kərimzadə ölümündən sonra Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak etdiyinə və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən "Vətən uğrunda" Cəbrayılın, Füzulinin, Xocavəndin azad olunmasına görə medallarına layiq görülüb.